# Şairin kədəri

Şöhlət Əfşar haqqında belə mövzuda yazmaq ilk baxışdan qəribə görünə bilər. Çünki şair xaraktercə nikbin, mübariz insandır, yaradıcılığında da aparıcı xətt həyatı qürurla yaşamaq ideyası, amalıdır. Bununla belə, kədərli ovqat da şairin yaradıcılığında əsas xətt kimi keçdiyini müşahidə etmək olur. Lakin şairi kədərləndirən səbəblər onun şəxsi həyatı ilə bağlı deyil. O, heç vaxt şəxsi istək və arzularını önə çəkmir, taleyindən şikayətlənmir. Ş.Əfşarın kədəri bəşəri kədərdir.

Ş.Əfşarın kədərinin əsas səbəbi vətənin, əsrlərdən bəri bölünə-bölünə kiçilməsi, Qarabağın işğalının törətdiyi faciələrlə bağlıdır.

Şairi məyus edən səbəblərdən biri də ona öyrədilənlərlə real həyatda gördükləri, yaşadıqları arasında böyük fərq, uçurumdur.

Müəllimə xitabən yazdığı "Həyat sən öyrədən deyil, müəllim!" peomasından alınmış aşağıdakı iki bənd bu ziddiyyətin nə qədər dərin olduğunu göstərir:

*...Şam kimi qəlbimə işıq saçmısan.*
*Sən haqqı deməyə səslədin bizi.*
*Bəsirət gözümü elə açmısan,*
*"Görm'yə bilmirəm əyrini, düzü!...*

Amma böyüyüb "çox şeyin başayaq olduğunu" görür, qəlbində müəllimə qarşı inciklik də yaranır.

Əslində, hər bir qələm sahibinin əsas vəzifəsi çoxlarının görmədiyini göstərməkdir.

*...Çürüyüb əqidə, dağılıb təməl,*
*İndi tərsinədir iş ilə əməl!...*

Qeyd etdiyimiz kimi, Ş.Əfşarın qəlbini sıxan əsas səbəb Vətəni ilə bağlıdır. "Şuşanın gözləri yollarda qalıb" şeirində şairin kədəri, həyəcanı ilk misralardan oxucuya sirayət edir:

*Bu gecə yuxuma girmişdi Şuşa,*
*Qara bir örpəyi çalmışdı başa.*
*Gördüm minarələr ağlayır qoşa...*

Əslində, ağlayan qan-yaş tökən qoşa minarələr deyil, şairin gözləridir.

Ş.Əfşarın poeziyası mübariz poeziyadır. Şair qəlbinin parçalandığı ən kədərli məqamlardan danışanda da heç vaxt ümidsizliyə qapılmır, oxucusuna da bədbinlik təlqin etmir.

Ş.Əfşar vətəndaş şairdir. Rus şairi Nekrasovun belə bir fikri var: "Sən şair olmaya bilərsən inan, Vətəndaş olmağa amma borclusan". Şöhlət müəllim isə həm səmimi vətəndaş, həm də istedadlı şairdir. Professor M.Qasımlı da Ş.Əfşarın bu cəhətini xüsusi qeyd edir. "Şöhlət Əfşar yurdcu, vətənçi, sözün yaxşı mənasında millətçi şairdir". Şairin bu yaradıcılıq keyfiyyəti Gülayə Könülə xitabən yazdığı "Bu dünyanın havasına oynama" lirik poemasında da qabarıq görünür:

*Zalım qızı, nə oyundur düşübsən?*
*Qəsd eləyib şirin candan keçibsən.*
*Qəm şərbətin badə-badə içib sən,*
*Bu dünyanın havasına oynama.*

Birinci misrada "nə oyundur düşübsən?" iki mənada həm müstəqim (çalınan havaya oynamaq), həm də məcazi mənada (oyuna düşmək, oyuna gəlmək, şərə düşmək) işlənmişdir.

Şair insanlardan bəzən ümidini üzsə də Allahdan ümidini üzmür, Onu köməyə çağırır. Çünki:

*...Zaylaşıb, olubdu veyil bu dünya,*
*Yezidə salıbdı meyil, bu dünya.*
*Allah! Yaratdığın deyil bu dünya!...*

Mənə elə gəlir ki, Aprel döyüşlərindəki qələbəmiz olmasaydı şair ruhdan düşər, sınardı. Lakin xalqımızın Aprel qələbəsi onun gələcəyə ümidinin qırılmasına imkan vermədi.

*O Aprel gecəsi titrədi dağlar,*
*Şanlı ordumuzun bir zərbəsindən.*
*Qaçhaqaça düşdü qorxaq yağılar,*
*İgid əsgərlərin nərə səsindən...*

Məhz bu qələbədən sonra şair inamla yazır:

*...Qələbə müjdəsi verəcək bir gün,*
*Şöhlətin qələmi od saçacaqdır.*
*Xoşbəxtdir o əsgər, gələcək bir gün,*
*Şuşada bayrağı qaldıracaqdır!*

"Şair sözü Haqqdan gələr" deyiblər. Şair Şöhlət Əfşarın bu inamı bizi də qələbəmizin yaxında olacağına inandırır. Yəqin ki, ondan sonra onun poeziyası da yalnız sevincdən, nikbin əhval-ruhiyyədən danışacaqdır.

**Fərhad Əzizbəyli**

22 iyun 2019